# QARABAĞ MEŞƏLƏRİNDƏ RAST GƏLİNƏN NADİR VƏ NƏSLİ KƏSİLMƏKDƏ OLAN AĞAC BİTKİLƏRİ

**Yenigül Qurbanlı**

*Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi*

30 ilə qədər Ermənistanın işğalda saxladığı Azərbaycan ərazilərində 224792 hektar meşə sahəsi olmuş və işğal müddətində bu meşələrin 54328 hektar hissəsi kəsilərək və ya yandırılaraq məhv edilmişdir. Məhv olmuş meşə əraziləri digər növlərlə yanaşı, Azərbaycan Respublikasının "Qırmızı kitab"ına daxil edilmiş bitkilərin də areallarını əhatə edir.

Meşə ekosistemində meşəçilik sahəsi baxımından ekosistemin digər komponentlərinə nisbətən ağaclar daha çox maraq kəsb edir. Məhz ona görə də Kiçik Qafqazın işğal olunmuş hissəsindəki meşələrdə nadir və nəsli kəsilməkdə olan ağac bitkilərinin nəzəri təhlili aparılmışdır. Məlum olmuşdur ki, tədqiq olunan ərazidə təbii şəraitdə 10 fəsiləyə, 11 cinsə aid 11 ağac taksonu vardır: *Taxus baccata* L., *Juniperus foetidissima* Willd., *Platanus orientalis* L., *Castanea sativa* Mill., *Corylus colurna* L., *Celtis australis* subsp. *caucasica* (Willd.) C.C.Towns., *Zelkova carpinifolia* (Pall.) K.Koch, *Prunus fenzliana* R.M.Fritsch, *Acer trautvetteri* Medw., *Pistacia atlantica* subsp. *mutica* (Fisch. & C. A. Mey.) Rech.f., *Sorbus aucuparia* L.

**Qarabağ meşələrində rast gəlinən nadir ağac bitkilərinin müqayisəli miqdarı**

| Bitkilər | Say, ədəd | Miqdar, % |
|---|---|---|
| "Qırmızı kitab" üzrə ümumi bitkilər | 260 | 100 |
| Ağac və kollar | 53 | 20,4 |
| Kiçik Qafqaz üzrə ağac və kollar | 22 | 8,5 |
| Qarabağ üzrə ağaclar | 11 | 4,2 |

Cədvəldən məlum olur ki, "Qırmızı kitab"a daxil edilmiş 11 növ ağac bitkisinə Qarabağın dendroflorasında rast gəlinir ki, bu da ölkə üzrə bütün nadir və nəsli kəsilməkdə olan dendrofloranın 21%-ni, Kiçik Qafqaz üzrə 50%-ni təşkil edir.

İşğaldan azad olunmuş ərazilərdə aparılacaq meşəbərpa tədbirləri zamanı göstərilən ağac bitkilərinin hazırkı vəziyyətinin monitorinqi aparılmalı, say və populyasiyalarının bərpası üçün işlər görülməlidir.